# “Mən fəxr edirəm ki, azərbaycanlıyam!”



YAP Yasamal rayon təşkilatında Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illiyi ilə bağlı “Mən fəxr edirəm ki, azərbaycanlıyam!” adlı sərgi təşkil olunmuşdu. Əvvəlcə müstəqilliyimiz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. YAP Yasamal rayon təşkilatı və Azərbaycan Rəssamlar İttifaqının birgə təşkil etdikləri tədbirdə təsviri sənətin bütün növləri üzrə, müxtəlif yaş qruplarını əhatə edən 100-dən artıq rəssamın 150-yə yaxın əl işi nümayiş etdirilirdi.



YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov bildirdi ki, Prezident İlham Əliyevin müsəlman Şərqində ilk parlamentli respublika olan AXC-nin 100 illiyi ilə bağlı imzaladığı Sərəncam dövlətçilik ənənələrinə sadiqlik nümunəsidir. “Yüz illik yubileylərlə zəngin olan, yola salmağa hazırlaşdığımız 2018-ci ilin mühüm hadisələrindən biri də Azərbaycan Xalq Cümhuriyyətinin əsrlik yubileyinin təntənə ilə qeyd olunmasıdır” söyləyən Tağı Əhmədov bildirdi ki, AXC qısa müddətdə beynəlxalq hüququn subyekti olduğunu dövlətçiliyi şərtləndirən amilləri formalaşdırmaqla təsdiqlədi.



Xalqımızın azadlıq uğrunda mücadiləsini Naxçıvan Muxtar Respublikası parlamentinin sessiyalarına əvvəl müdrik siyasətçi, sonra isə Naxçıvan MR Ali Məclisinin sədri kimi başçılıq edən ulu öndər Heydər Əliyev reallaşdırdı. Dövlətçiliyimizə sədaqətinin ifadəsi olaraq Cümhuriyyətin bayrağını, gerbini, himnini müstəqil Azərbaycanın dövlət atributları kimi bərpa etdi. “Biz Azərbaycanda ilk demokratik respublikanın qurulmasında, yaranmasında göstərdikləri xidmətlərə görə Əlimərdanbəy Topçubaşova, Fətəli xan Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır” sözləri ilə onların xidmətlərini dəyərləndirdi. Paytaxtımızda AXC qurucularının xatirəsinə ucaldılmış abidə Prezident İlham Əliyevin müasir nəslin sələflərinə vəfa borcudur.



Sərginin layihə rəhbəri Elnurə İsgəndərova, təşkilatçı Aygün İsgəndərova bildirdilər ki, Cümhuriyyət ilində müxtəlif yerlərdə 25-ci dəfə tamaşaçı auditoriyasına təqdim olunan sərginin təşkilində məqsəd gənclərə Azərbaycanın dövlətçilik tarixi, xalqımızın mənəvi dəyərləri, keçdiyi inkişaf yolu ilə bağlı məlumatları çatdırmaqdır.



YAP Yasamal rayon təşkilatı Qadınlar Şurasının sədri Tamella Şahbazova, Sabir adına kitabxananın müdiri, rəssam Gülşən Abbasova, Əməkdar rəssam Asif Azərselli sərginin təşkilatçılarına minnətdarlıqlarını bildirdilər. Rəssamlar İttifaqının üzvləri Eynulla Abdullayevin, Firdovsi Hacıyevin, ADPU-nun Təsviri incəsənət və tədrisi mexanizmi kafedrasının müəllimi İslam Gülmalıyevin yetirmələrinin əl işləri daha çox maraq doğurdu. Mehdi Səlimovun, Xədicə Quliyevanın, Aysel İbrahimovun, Tamerlan Məmmədovun və başqalarının rəsmlərində Bakının dünəni və bu günü, qəhrəman ordumuzun əsgərləri, bayrağımız təsvir olunurdu.

Sonda rəsmləri daha çox bəyənilən müəlliflərə YAP Yasamal rayon təşkilatının və Rəssamlar İttifaqının diplomları təqdim olundu.

**Xuraman İsmayılqızı,**
**Vüsal Cahanov (foto)**
***“İki sahil”***